# YAŞAYACAQDIR...

*Gəlmişik dünyaya gedəcəyik biz,*
*Xeyirxahlıq, müdrik söz qalacaqdır.*
*Yaxşı insanları itirsək də biz,*
*Onlar qəlbimizdə yaşayacaqdır.*

**Hikmət Mahmud**

Çalışıram ki, Azərbaycan Milli Elmlər Akademiyası Geologiya İnstitutunun şöbə rəhbəri, geologiya-mineralogiya elmləri doktoru, professor, şair, 2005-ci ildən son günlərinədək görüşüb tanıdığım Hikmət Mahmudun xatirəsini qələmə ala bilim.

Həmişəki kimi yeni il münasibəti ilə çalışdım ki, xətrini çox istədiyim Hikmət Mahmuda zəng edərək onu, bütün ailə üzvlərini təbrik edim.

Bu dəfə telefona həyat yoldaşı Mahizər xanım cavab verdi. Biləndə ki, Cəlilabaddan Adil müəllimdir, tanıyaraq doluxsundu. Çətinliklə də olsa dedi ki, Adil müəllim, dostun Hikmət artıq həyatda deyil.

O, 21 dekabrda dünyasını dəyişib. Bu ağrılı-acılı xəbəri eşitmək onu tanıyanlar, yaxın dostları, eləcə də bütün Azərbaycan xalqı üçün ağır olduğu kimi mənim üçün də ağır xəbər oldu. Mən adicə bir musiqi müəllimiyəm. Onunla tanışlığımı, dostluğumu özüm üçün qürur hissi duyurdum. Həyatımın ən ağır çağlarında belə onun nəsihətamiz sözlərindən düzgün nəticə çıxardaraq işimi qururdum.

Olduqca sadə və səmimi dost idi. Allahdan ona rəhmət diləyib, yaxınlarına baş sağlığı verə bildim.

Hələ III kursda oxuyarkən eşitdim ki, Cəlilabad şəhərində ilk dəfə ibtidai uşaq musiqi məktəbi açılacaq. Zavodun tökmə sexi üzrə texnoloji bürosunun rəisi vəzifəsində işləyirdim. Qərara aldım ki, mədəniyyət nazirliyinə ərizə ilə müraciət edim. Nazirlikdə məni böyük məmnuniyyətlə ilk müəllim kimi göndəriş vərəqi verərək yola saldılar. Sumqayıta getməkdə də əsas məqsədim o idi ki, uşaqlıq illərindən tar sənətinə yaxından bələd olmaqla bu şəhərdə gələcəkdə işləyim.

Ruhulla Axundov adına Sovxozun qabaqcıl üzümçülük briqadiri Səadət Yahyayevaya həsr olunmuş mahnım bu ərəfədə yarandı. Mahnı ilk dəfə tanınmış müğənni Kamil Mirzəyevin ifasında Az Tv-də uğurla səsləndi. Bundan bir il sonra keçmiş SSRİ Ali Sovetinin deputatı Minayə Əliyevaya həsr olunmuş 2-ci mahnı rayona qonaq gəlmiş xalq şairi mərhum Ağacavad Əlizadənin xahişi ilə birgə işləyərək yazılmışdı. Bu mahnı da həmin müğənninin ifasında yenə də Az Tv-də səsləndi. 90-cı illərin gərgin vaxtlarında "Yeni Gün" qəzetində dərc olunmuş "Haydi, igid əsgər" mahnısının sözləri həmin qəzetin redaktorunun olmaqla vətənpərvərlik mövzusunda ən uğurlu mahnı idi.

Mahnı təntənəli surətdə tədbirdə səslənmişdi. Yığıncağın sonunda məclisin aparıcısı həmin qəzetin əməkdaşı işləyən mərhum Qasid Nağı oğlu mənə yaxınlaşaraq dedi: -Adil müəllim, bu kiçik kitabçanı sənə hədiyyə verirəm. Sonra diqqətlə oxuyarsan.

Müəllifi qəlbə yatan, təbiət gözəlliklərini şeirlərində vəsf edən yeni yazarlardan Hikmət Mahmuddur. Burada yazılanların əksəriyyəti qəlb oxşayan gözəl mahnılara uyğun gəlir.

Tədbirdən sonra evə gələrək bu kitabçanı diqqətlə oxuduqdan sonra elə bil bütün təbiət mənzərəsi gözlərim qarşısında canlandı. Sadə dildə yazılmış bu şeirləri dinlədikcə mən özümü xəyallarda həmin mənzərələrin iştirakçısı kimi sayırdım. Burada bir haşiyə çıxıram. Mənim uşaqlıq illərim müharibə ərəfəsinə təsadüf edirdi. Müharibə sözünü böyüklərdən eşidəndə hamı həyəcanla danışırdı. O vaxtı bu sözün əsl mahiyyətini dərk etmirdik. Ancaq hiss edirdik ki, bu söz nə qədər dəhşətli söz imiş. Kiçik bir kənddə yaşayırdıq. Demək olar ki, bütün gəncləri hətta yaşlı nəsillərdən əksəriyyətini, o cümlədən atamızı da müharibəyə aparmışdılar. Kəndimizdə 2 mərtəbəli bir bina var idi. Onun birinci mərtəbəsində uşaqlar üçün bağça açılmışdı. Uşaqların oturması üçün tikinti materialı kimi istifadə olunan palıd taxtalardan oturacaqlar düzəltmişdilər. Çörək qıtlığı var idi. Xaricdən kukruz və noxud unu gətirmişdilər. Ondan bişirilən çörəyi üçbucaq şəklində doğrayırdılar. Kənd fermasından gətirilən süddən hər uşağa yarım stəkan verərək yedizdirirdilər. İndi də uşaqlıq illərindəki çətin günlər gözlərimin önündən getmir. Beləcə Qasid Nağıoğlunun mənə verdiyi bu qiymətli kitabdan ilk dəfə körpələrə həsr olunmuş bir mahnını nota götürərək uşaqların ifasında oxunmağa başlandı. Körpələrə həsr olunmuş bu mahnı uşaq bağçalarında hətta böyüklər tərəfindən sevilə -sevilə qarşılanırdı. Axı böyüklər də vaxtı ilə uşaq olmuşlar.

Hikmət Mahmudla gələcək tanışlığımız və dostluğumuz bu kitabla bağlıdır. Sonralar qonşuluqda olan "Privolnoye" kənd kitabxanasına müraciət edərək Hikmət Mahmudovun ikinci bir kitabını da tapa bildim.

Beləliklə bu kitablardan istifadə edərək imkanım daxilində 8-ə qədər mahnını işləyərək nota köçürdüm. Mahnıları həm öz dərs dediyim şagirdlərin, həm də ümumtəhsil məktəbinin şagirdləri tərəfindən məşq eləməyə başladıq. Qərara gəldik ki, Hikmət Mahmud yaradıcılığına həsr olunmuş bir tədbir keçirək. Mədəniyyət evinin müdürü Telman Şıxəliyevin rəhbərliyi ilə "Görüşünə gələcəyəm, a dağlar" adlı afişa hazırlandı.

"Privolnoye" kənd ümumtəhsil məktəbinin direktoru İsabala müəllimin yaxından köməkliyi ilə kənd mədəniyyət evinin kiçik zalında olduqca maraqlı keçən tədbirimiz baş tutdu. Tədbir 2001-ci ilin noyabr ayında keçirildi.

Nəhayət 5 illik fasilədən sonra Azərbaycan Yazıçılar Birliyinə müraciət etməli oldum. Keçirilən tədbirlə bağlı çəkilən lentin surəti ilə onun şeirləri əsasında hazırlanmış suveniri özümlə götürmüşdüm.

Maraqlı dialoq: Qapının girəcəyində leytenant rütbəsi olan 35-40 yaşlı polis işçisi əylənmişdi. Tanınmış şair Hikmət Mahmudovun ünvanını və telefon nömrəsini istədim. Məqsədimi isə əvvəlcədən ona bildirmişdim. Polis işçisi yerindən qalxaraq mənə bildirdi ki, mənə ciddi tapşırıq vermişdir, heç kimə ünvan verməк olmaz. Ondan xahiş etdim ki, mən Cəlilabad rayonundan buraya bu məqsədlə gəlmişəm. Xeyirxahlıq edib heç olmasa telefon nömrəsini verməniz sizdən xahiş edirəm. Bu dəfə daha ciddi şəkildə dedi ki: Mən sizə dedim ki, olmaz qurtardı. Yadıma "Əhməd hardadır?" filmində "Zülümov dedi qurtardı" əhvalatı düşdü.

Birdən yadıma düşdü ki, suveniri və lentə alınmış çəkilişin surətini ona göstərim, bəlkə insafa gəldi. O diqqətlə lentlə suvenirə baxandan sonra dedi:

- Bu başqa məsələ.

Yaxındakı qəzet köşkünü mənə göstərərək dedi:

- Get orada qeydiyyat vərəqəsinin surətini çıxart, gətir mənə ver.

Elə də etdim. Sənədi ona verəndən sonra kitabdan Hikmət Mahmudun telefon nömrəsini tapıb mənə verdi.

Mən ona təşəkkürümü bildirərək, sağollaşdım. 5-6 metr aralanmışdım ki, -Ağsaqqal, bir dəqiqə dayanın deyərək, əlində bir ədəbiyyat qəzetini mənə verdi. Burada Bəxtiyar Vahabzadənin 70 illiyi ilə bağlı maraqlı yazılar var, yolda oxuyarsınız.

Həqiqətən də qəzetin səhifələrində maraqlı görüşlərlə bağlı şeirlər və yazılar vardı. Hətta evə gələndən sonra bu şeirlərin birinə mahnı da yazdım.

Telefon nömrəsini aldıqdan sonra Hikmət Mahmudovla zəngləşib əlaqə saxlaya bildik. O məzuniyyətdə olduğu üçün İsmayıllı rayonundan, doğma yurdundan telefona cavab verdi. Mən ona deyəndə ki, biz bir-birimizi tanımasaq da sizin qəlb oxşayan şeirlərinizlə tanış olduqdan sonra sizin yaradıcılığınızla bağlı tədbir keçirmişik, şeirlərinizlə yanaşı bir suvenir və tədbirin lent yazısının surətini sizə gətirmişəm, cavabında nə desə yaxşıdır: Siz nə böyük insansınız, olduqca təqdirəlayiq bir iş görmüsünüz. Yaxın günlərdə Bakıya gələcəm. Hökmən əlaqə saxlayıb görüşərik. Həmin ərəfədə "Qaranquş sanatoriyasında" putevka ilə istirahət edirdim. İstedadlı jurnalist, teleaparıcı Hacı Orxan Fikrət oğlu ilə burada tanış olmuşduq. O mənə dedi ki, mənim atam 7-ci mikrorayonda olur. Hansı marşrutla gedəcəyimi mənə demişdi. 2 gündən sonra zəngləşərək öyrəndim ki, Hikmət Mahmud yaşadığı ünvana qayıdaraq məni gözləyir. İlk görüşümüz olduqca maraqlı oldu. Mən onun şəklini "Danışanda-güləndə" adlı kitabında görmüşdüm. 1975-1980-ci illərdə, cavanlıq vaxtında çəkdirdiyi şəkildəki kimi gözlərim önündə canlandırdım. Bizim görüşümüz qırılmaz tellərlə bizi bir-birimizə bağladı və ömrünün son günlərinə qədər davam etdi. Özəl günlərdə, bayramlarda vaxtaşırı olaraq bir-birimizlə telefon əlaqəsi yaradaraq, haləhval tutmuş, səmimi arzularımızı bir-birimizə bildirmişik. 7-yə yaxın çapdan çıxmış kitablarını avtoqraf yazaraq mənə hədiyyə vermişdi.

Onun mənə hədiyyə etdiyi "Karvan yolu" kitabında yazdığı avtoqrafı oxuculara olduğu kimi verirəm: "Cəlilabad yurdunun ziyalısı, sadə, səmimi, xeyirxah və zəhmətkeş insan, hörmətli Adil Əmirova müəllifdən xatirə."

Hikmət Mahmudovla görüşlərimiz zamanı bildirmişdim ki, rayon mədəniyyət evində mənim 75 illiyimə həsr olunmuş yığıncaq keçiriləcək. Qabaqcadan mənə həsr etdiyi təbrik məktubunu öz imzası ilə dərc edirik.

Hikmət Mahmud olduqca sadə və səmimi insan idi. Onda insana xas olan bütün müsbət keyfiyyətlər var idi. Əsl vətənpərvər, hər zaman xalqımızın mədəniyyətini, adət-ənənələrini qoruyub saxlayan, dəyərli bir ziyalı idi. Fikrimi onun sözləri ilə bitirmək istəyirəm.

İnsanlıq taxtına ucala bilsən
Mərifət elmindən demək halısan.

*Adil* Əmirov



*Cəlilabad rayon*
*Ağsaqqallar şurasının üzvü*